DOI: https://doi.org/10.36719/2663-4619/127/201-212

**Çinarə Rzayeva**
Azərbaycan Milli Elmlər Akademiyası
Naxçıvan Bölməsi
Naxçıvan, Azərbaycan
filologiya üzrə fəlsəfə doktoru
cinarerzayeva@yahoo.com.tr

# Azərbaycan folklorunda qadın baş örtüyünün etno-mədəni və funksional xüsusiyyətləri

## Xülasə

Bu məqalədə Azərbaycan geyim adları, yaylıq, örpək, şal, kəlağayı – etnik kimliyin formalaşması və mədəni dəyərlərin qorunması kontekstində sistemli şəkildə araşdırılır. Tədqiqatın əsas məqsədi geyim terminlərinin Azərbaycan xalqının kollektiv kimliyində və mədəni yaddaşında tutduğu yeri müəyyənləşdirməkdir. Araşdırmada folklor nümunələri, dastanlar, nağıllar, bayatılar və mərasim mətnləri, xalqın tarixi yaddaşını, sosial münasibətlər sistemini və mədəni dünyagörüşünü əks etdirən əsas mənbələr kimi götürülmüşdür. Məqalədə geyim adları yalnız maddi mədəniyyət nümunələri kimi deyil, eyni zamanda sosial statusun, cinsiyyət fərqlərinin, yaş kateqoriyalarının, regional xüsusiyyətlərin və estetik zövqün ifadəçisi olan simvolik göstəricilər kimi təhlil olunur. Folklor mətnlərində yaylıq, örpək kimi geyim elementlərinin qoruyucu, ayırdedici və tənzimləyici funksiyalar daşıdığı müəyyənləşdirilir. Araşdırma nəticələri göstərir ki, bu geyim adları folklor mətnlərində milli və etnik kimliyin əsas göstəricilərindən biri kimi çıxış edir və kollektiv kimliyin nəsildən-nəslə ötürülməsində mühüm rol oynayır. Geyim terminlərinin istifadəsi vasitəsilə cəmiyyətin dəyərlər sistemi, etik normaları və sosial davranış modelləri kodlaşdırılaraq qorunur. Məqalədə həmçinin geyim adlarının dilçilik və etnoqrafik aspektləri nəzərdən keçirilir, onların semantik xüsusiyyətləri və funksional yükləri təhlil edilir. Bu kontekstdə geyim terminlərinin mədəni yaddaşın qorunması və etnik kimliyin davamlılığının təmin olunmasındakı rolu xüsusi olaraq vurğulanır. Nəticə etibarilə, folklor mətnlərində işlənən geyim adlarının Azərbaycan xalqının etnik kimliyinin və mədəni irsinin ayrılmaz tərkib hissəsi olduğu qənaətinə gəlinir. Bu məqalədə Azərbaycan cəmiyyətində yaylığın etnik-mədəni kimliyin formalaşmasındakı rolu empirik metodlar əsasında araşdırılmışdır. Tədqiqat müşahidə, sorğu və statistik analiz üsullarından istifadə etməklə aparılmışdır. Tədqiqatın empirik hissəsində şəhər və kənd mühitində aparılan sorğuların (n=133) nəticələri əsasında geyim elementlərinin müasir dövrdəki simvolik funksiyaları təsnif edilir.

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, qadın statusu, mədəni yaddaş, mədəni dəyərlər, baş örtüyü*

**Chinara Rzayeva**
Nakhchivan Branch of the Azerbaijan
National Academy of Sciences
Nakhchivan, Azerbaijan
PhD in Philology
cinarerzayeva@yahoo.com.tr

# Ethno-Cultural and Functional Characteristics of Women's Head Coverings in Azerbaijani Folklore

## Abstract

This article systematically examines Azerbaijani clothing terminology specifically *yaylıq, örpək, şal,* and *kəlağayı*-within the context of ethnic identity formation and the preservation of cultural values. The primary objective of the study is to determine the significance of clothing terms in the collective identity and cultural memory of the Azerbaijani people.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Folklore samples, including epics, fairy tales, *bayatis*, and ritual texts, serve as the foundational sources reflecting the historical memory, social relations, and cultural worldview of the nation. In this study, clothing names are analyzed not merely as artifacts of material culture, but as symbolic indicators expressing social status, gender distinctions, age categories, regional characteristics, and aesthetic taste. The research identifies that clothing elements such as the *yaylıq* and *örpək* perform protective, distinctive, and regulatory functions within folklore texts. The findings indicate that these terms act as key markers of national and ethnic identity, playing a vital role in the intergenerational transmission of collective heritage. Through the use of clothing terminology, the society's value systems, ethical norms, and social behavior models are encoded and preserved. The article also reviews the linguistic and ethnographic aspects of these terms, analyzing their semantic features and functional weight. In this framework, the role of clothing terminology in safeguarding cultural memory and ensuring the continuity of ethnic identity is emphasized. Ultimately, the study concludes that the clothing names utilized in folklore texts are an integral part of the ethnic identity and cultural heritage of the Azerbaijani people. Furthermore, the role of the *yaylıq* in the formation of ethno-cultural identity within Azerbaijani society is investigated through empirical methods. The research was conducted using observation, surveys, and statistical analysis. The empirical component classifies the modern symbolic functions of clothing elements based on the results of surveys (n=130) conducted in both urban and rural environments.

***Keywords:*** *Azerbaijan, Nakhchivan, status of women, cultural memory, ethnic identity, cultural values, headgear*

## Giriş

Etnografiya yunan mənşəli termin olub, "xalqların maddi və mənəvi mədəniyyətini, eləcə də onların tarixi-mədəni münasibətlərini öyrənən elm sahəsi" (Orucov, Əliheydər və b., 2006, s.42) kimi izah olunur. Lakin bu elm yalnız tarixi faktlarla məhdudlaşmır, o, eyni zamanda xalq ədəbiyyatında, xüsusən də folklorda öz canlı əksini tapır. Çünki folklor janrları xalqın maddi dəyərlərini, sosial normalarını və gündəlik həyat tərzini ən təbii şəkildə əks etdirən bir güzgüdür. Bu baxımdan, folklor mətnləri cəmiyyətin tarixi inkişaf prosesində formalaşmış etnik kimliyinin və mədəni dəyərlərinin mühüm ifadə vasitəsi kimi çıxış edir.

Müasir dövrdə milli dəyərlərin qorunması fonunda geyim terminləri mühüm etno-mədəni əhəmiyyət kəsb edir. "Geyim məhsulları mədəni məhsulların vizual təzahürü kimi tez-tez cəmiyyət üçün işarə və sosial kimlik vasitəsi kimi istifadə olunur" (Tajuddin, 2018, s. 22). Bu elmi yanaşma Azərbaycan folklorundakı geyim sisteminin semantik yükünü tam şəkildə izah edir.

Xalqın dil yaddaşında qorunan "yaylıq", "kəlağayı" və digər geyim adları sadəcə bir əşyanı ifadə etmir; onlar Tajuddinin qeyd etdiyi həmin "işarə və sosial kimlik" funksiyasını daşıyaraq fərdin mənsub olduğu etnosun mədəni kodlarını vizuallaşdırır. Xüsusilə "yaylıq" elementinin etno-semantik təhlili göstərir ki, bu detal Azərbaycan məişətində sülh, namus və status simvolu kimi çıxış edərək, cəmiyyət daxilində mühüm bir ünsiyyət və kimlik vasitəsinə çevrilmişdir.

Bu araşdırmada məqsəd folklor mətnlərindəki geyim adlarının, xüsusən də Naxçıvan bölgəsi konteksində, mədəni kimliyindəki yerini və bu gün də davam edən simvolik əhəmiyyətini işıqlandırmaqdır. Çünki folklor nümunələri yalnız estetik dəyər daşımır, eyni zamanda kollektiv kimliyin, sosial quruluşun və mədəni kodların qorunduğu mühüm bir "yaddaş məkanı" funksiyasını yerinə yetirir. Mədəniyyətin cəmiyyətlərin kimliyini ifadə etməsi və zamanla formalaşaraq nəsildən-nəslə ötürülməsi də məhz bu yaddaş mexanizmləri vasitəsilə mümkün olur" (Akcan & Blaha, 2023, s. 2). Azərbaycan da tarix boyu öz etnik kimliyini və milli-mədəni dəyərlərini qoruyub saxlamış, bu irsi həm daxili, həm də beynəlxalq müstəvidə tanıtmış qədim mədəniyyətlərdən biridir.

Geyim mədəniyyəti, hər bir nümunəsinin "əcdadlarımızın mənəvi prinsipləri ilə hopdurulması və əsrlər boyu təkmilləşdirilməsi baxımından..." (Babayewa, 2022, s.128) xalqların etnik kimliyinin formalaşmasında və mədəni dəyərlərinin ifadəsində mühüm rol oynayan əsas göstəricilərdən biri hesab olunur. Tarixi inkişaf prosesində geyim yalnız məişət ehtiyaclarını qarşılayan maddi vasitə kimi deyil, eyni zamanda sosial statusu, cinsiyyət rollarını, estetik zövqü və kollektiv mənsubiyyəti

əks etdirən simvolik sistem kimi çıxış etmişdir. Bundan əlavə, geyimlər "tez-tez nəsillərdən-nəsillərə ötürülən bir cəmiyyətin adət-ənənələrini, dəyərlərini və həyat tərzini təmsil etmişdir" (Jhangra, 2025, s. 13) ki, bu hal bu gün də müşahidə olunur. Bu baxımdan folklor mətnləri geyimlə bağlı mədəni kodların qorunduğu və nəsildən-nəslə ötürüldüyü etibarlı mənbələrdən biri hesab olunur. Azərbaycan folkloru zəngin süjet və obrazlar sistemi ilə yanaşı, geyim terminləri baxımından da geniş və rəngarəng material təqdim edir.

Müasir etnik və mədəni araşdırmalarda kimlik anlayışının dinamik və çoxqatlı xarakter daşıması geyim kimi vizual və semantik göstəricilərin yenidən elmi təhlilə cəlb olunmasını zəruri edir. Lakin Azərbaycan folklor mətnlərində geyim adlarının etnik kimlik və mədəni dəyərlər kontekstində sistemli şəkildə araşdırılması hələ də məhdud xarakter daşıyır. Mövcud tədqiqatlar əsasən təsviri-etnoqrafik yanaşma ilə kifayətlənir, geyim terminlərinin semantik, simvolik və ideoloji funksiyaları isə kifayət qədər dərindən araşdırılmır.

Bu məqalənin məqsədi Azərbaycan folklor mətnlərində işlənən geyim adlarını etnik kimliyin ifadə vasitəsi və mədəni dəyərlərin daşıyıcısı kimi sistemli şəkildə təhlil etmək, onların sosial, semantik və simvolik funksiyalarını üzə çıxarmaqdır.

Araşdırmalar göstərir ki, folklor mətnlərində çoxsaylı geyim adları mövcuddur və bu terminlər əksər hallarda xalqın etnik kimliyini və mədəni dəyərlərini əks etdirir. "Geyim mədəniyyətinin inkişafında təbii-coğrafi şərait, xüsusilə iqlimin rolu böyük olmuşdur. Buraya əhalinin dünyagörüşü, mənəvi-əxlaqi, sosial-iqtisadi durumu da daxildir" (Bünyadov, 2007, s. 8), Bununla yanaşı, geyim mədəniyyəti etnik xüsusiyyətlər, adət-ənənələr və texnoloji inkişaf amillərinin təsiri ilə də formalaşmışdır. Diqqətəlayiq məqamlardan biri folklor mətnlərində işlənən geyim terminlərinin böyük hissəsinin türk mənşəli olmasıdır ki, bu da xalqın dilinə, mədəniyyətinə və etnik kimliyinə verdiyi önəmi aydın şəkildə nümayiş etdirir.

Beləliklə, folklor mətnlərində geyim (baş örtüsü) terminlərinin təhlili xalqın etnik kimliyini, mədəni yaddaşını və tarixi təcrübəsini anlamaq baxımından mühüm elmi əhəmiyyət kəsb edir.

**Ədəbiyyat İcmalı**

Folklor və geyim mədəniyyəti etnoqrafiya və antropologiya sahələrində hər zaman aktual olan, geniş tədqiqat keçmişinə malik mövzulardır. Ənənəvi geyim elementləri sadəcə bir maddi mədəniyyət nümunəsi deyil, əksinə, etnik kimliyin və mədəni irsin maddi strukturlar daxilində kodlaşdırılmış formasıdır (Niinimaki, 2021). Bu yanaşma geyim terminlərinin həm semantik, həm də simvolik funksiyalarını dərindən anlamaq üçün bizə geniş elmi kontekst təmin edir.

Son illərin araşdırmaları göstərir ki, geyim terminologiyası yalnız linqvistik bir məsələ deyil, o həm də etnik kimliklə birbaşa bağlı olan dinamik bir strukturdur. Mənim qənaətimə görə, geyim burada sadəcə zahiri görünüş vasitəsi kimi çıxış etmir. O, eyni zamanda bir xalqın, tayfanın və ya nəslin tarixi yaddaşını, sosial statusunu və fərdi rollarını özündə birləşdirən mədəni bir nümunədir. Bu baxımdan, geyimlə bağlı hər bir termin cəmiyyətin daxili nizamını və mənəvi dəyərlərini şifrələyən simvolik bir dil rolundadır.

Türk xalqlarında, xüsusən də baş örtüyünün etnik və mədəni funksiyaları Arslan (2022) tərəfindən xüsusi vurğulanmışdır. Müəllif qeyd edir ki, folklor mətnlərindəki baş geyimləri və aksesuarlar sosial sinif, gender və regional fərqləndirmə göstəricisidir. Azərbaycan folkloru kontekstində geyim terminlərinin yalnız sənətkarlıq obyekti kimi deyil, sosial strukturun "dil kodları" kimi öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Xalqın tarixi yaddaşını və etnik təfəkkürünü qoruyan folklor janrlarında geyim nümunələrinin geniş yer alması bu mətnləri daha da zənginləşdirir (Rzayeva, 2020). Bu maddi mədəniyyət nümunələri sadəcə bədii təsvir vasitəsi deyil, xalqın məişət mədəniyyətini və estetik dünyagörüşünü sənədləşdirən əsas informativ qaynaqlardır.

Buna baxmayaraq, Azərbaycan geyim adlarının etnik kimliklə bağlı ifadə funksiyasının təhlilində hələ də ciddi boşluqlar qalmaqdadır. Bu məqalə məhz həmin boşluğu doldurmağı – folklor mətnlərimizdəki geyim terminlərinin simvolik analizini zəngin mənbə bazası və sistemli faktoloji təhlillə tamamlamağı hədəfləyir. Beləliklə, bu iş həm nəzəri, həm də metodoloji baxımdan mövcud ədəbiyyata yeni bir qatqı verəcəkdir.

Geyim folklor kontekstində sadəcə praktik məqsəd daşımır, o həm də zəngin məna ifadə edən vizual ünsiyyət vasitəsidir. Məsələn, "Toy adətlərimizdən biri də gəlini evdən çıxardanda üzünə qırmızı yaylıq örtülməsidir" (Rzayeva, 2024, s. 170). Qeyd edək ki, bu yaylıq adi bir örtük kimi yox, yeni həyat mərhələsinə keçidin rəmzi kimi qəbul olunur. Bu element gündəlik məişətdə istifadə olunan yaylıqlardan funksional və simvolik baxımdan kəskin şəkildə fərqlənir. Gündəlik geyim fərdin sosial statusunu əks etdirirsə, ritual geyimləri cəmiyyətə yönəlmiş "örtülü mesajlar" və xüsusi mənalar daşıyır (Tajuddin, 2018). Bu simvolizmin ən bariz nümunələrindən biri də qadın baş örtüyünün (yaylıq/ləçək) münaqişə tərəfləri arasına atılaraq davanın dayandırılmasıdır. Bu barışdırıcı missiya türk xalqlarının ortaq etno-etik dəyərlərinin və sosial nizamı qoruyan vizual kodların təzahürüdür (Arslan, 2021). Qadınların bu rituallar vasitəsilə sülhün inşasına verdiyi töhfələr, bir növ "yumşaq güc" və alternativ barış modelləri kimi qiymətləndirilməlidir (Mbabazi et al., 2020).

Nəticə etibarilə, folklor mətnlərindəki geyim terminləri sadəcə etnoqrafik material deyil, xalqın sosial davranışını tənzimləyən mühüm vahidlərdir. Müasir dövrdə moda və kimlik əlaqəsi güclü bir mədəni ifadə formasına çevrilmişdir (Nair, 2024). Bu proses ənənəvi geyimlərin praktik tərəfini zəiflətsə də, onların simvolik və nümayiş xarakterini daha da önə çıxarmışdır (Niinimaki, 2021). Xalq geyimləri keçmişin statik bir qalığı deyil, mənaları müasir cəmiyyətdə daim yenilənən dinamik mədəni əsərlərdir (Rašić, 2026). Bunun ən canlı nümunəsi olan kəlağayı həm ailə dəyərlərinin simvolik təməli, həm də müasir vizual mədəniyyətin ayrılmaz bir hissəsidir.

**Metodologiya**

Bu tədqiqat empirik araşdırma metodlarına əsaslanaraq aparılmışdır. Əsas məqsəd baş örtüsü və yaylığın müasir dövrdə etnik-mədəni kimliklə əlaqəsini real məlumatlar əsasında müəyyənləşdirməkdir. Araşdırmada müşahidə, sorğu və statistik təhlil üsullarından istifadə edilmişdir. Müşahidələr kənd və şəhər mühitlərini əhatə etmiş, sorğuda isə ümumilikdə 133 respondent iştirak etmişdir. Respondentlər yaş, cins və yaşayış yerinə görə qruplaşdırılmışdır.

Sorğu sualları baş örtüsü və yaylığın istifadə tezliyi, istifadə səbəbləri və bu geyimlərin etnik kimliklə əlaqəsi üzərində qurulmuşdur. Toplanmış məlumatlar faiz göstəriciləri əsasında sistemləşdirilmiş və nəticələr cədvəllər vasitəsilə təqdim edilmişdir. Əldə olunan empirik məlumatlar müqayisəli təhlil yolu ilə araşdırılmış, tədqiqat zamanı obyektivliyin qorunmasına xüsusi diqqət yetirilmişdir.

Tədqiqatın etibarlılığını və nəticələrin obyektivliyini təmin etmək üçün kəmiyyət və keyfiyyət metodlarının kombinasiyasından (qarışıq metod) istifadə edilmişdir. Tədqiqat iki fərqli sosial mühitdə – kənd və şəhər yaşayış məntəqələrində aparılmışdır ki, bu da geyim mədəniyyətinin urbanizasiya səviyyəsindən asılı olaraq necə dəyişdiyini izləməyə imkan vermişdir.

Tədqiqatın seçmə məcmusu 133 respondentdən ibarət olmuşdur. Respondentlərin yaş həddi 18-dən 65+ yaşa qədər geniş aralığı əhatə etmişdir ki, bu da nəsillərarası fərqlərin və mədəni ötürülmə yollarının daha dərindən təhlilinə şərait yaratmışdır.

| Göstəricilər | Kateqoriya | Say (n) | Faiz (%) |
|---|---|---|---|
| **Yaşayış Yeri** | Şəhər | 73 | 54.9% |
| | Kənd | 60 | 45.1% |
| **Cəmi** | | **133** | **100%** |
| **Yaş Qrupu** | 18–35 yaş | 26 | 19.5% |
| | 36–50 yaş | 44 | 33.1% |
| | 51–65+ yaş | 63 | 47.4% |
| **Cəmi** | | **133** | **100%** |

Aparılmış sorğu və müşahidələr göstərir ki, geyim elementləri yalnız estetik xarakter daşımır, eyni zamanda mühüm sosial və mədəni funksiyalar yerinə yetirir. Kənd və şəhər mühitində əldə olunan nəticələr yaşayış yerinin geyim seçiminə və bu geyimə verilən mənaya birbaşa təsir etdiyini göstərir. Kənd yerlərində ənənəvi geyim elementləri daha çox kimlik göstəricisi kimi qorunduğu halda, şəhər mühitində bu elementlər daha çox simvolik xarakter daşıyır.

Yaş faktorunun da mühüm rol oynadığı müəyyən edilmişdir: yaşlı nəsil (51–65+ yaş) geyimi daha çox "mədəni miras" kimi qəbul etdiyi halda, gənc nəsil (18–35 yaş) onu mərasimlərdə istifadə olunan simvolik element kimi qiymətləndirir. Bu nəticələr geyim vasitəsilə etnik kimliyin və mədəni yaddaşın zamanla dəyişən, lakin davamlı xarakter daşıdığını göstərir. Bu da Akcan və Blaha-nın (2023) qeyd etdiyi kimi, etnik yaddaşın zaman içində necə dinamik şəkildə dəyişdiyini bir daha sübut edir.

**Etnik Kimlik Və Mədəni Dəyərlər Kontekstində Geyimin Təhlili**

Geyim mədəniyyəti etnik kimliyin formalaşması və ifadəsində mühüm rol oynayan sosial və simvolik göstəricilərdən biridir. Geyim mədəniyyətinin inkişafında təbii-coğrafi şərait, xüsusilə iqlimin rolu böyük olmuşdur. "Buraya əhalinin dünyagörüşü, mənəvi-əxlaqi, sosial-iqtisadi durumu da daxildir" (Bünyadov, 2007, s. 8). Tarix boyu geyim yalnız insanın fiziki ehtiyaclarını qarşılayan maddi vasitə kimi deyil, eyni zamanda fərdin cəmiyyət daxilindəki mövqeyini, mənsub olduğu sosial qrupu və mədəni kimliyini nümayiş etdirən əsas vasitələrdən biri kimi çıxış etmişdir. Xüsusilə ənənəvi cəmiyyətlərdə geyim formaları yazısız mədəniyyətin vizual dili funksiyasını daşıyaraq sosial münasibətlərin tənzimlənməsində mühüm rol oynamışdır. Çünki, "ənənəvi geyimlər etnik kimliyin vizual dili kimi fəaliyyət göstərir, sosial statusu və mədəni irsi maddi strukturları daxilində kodlaşdırır" (Niinimaki, 2021, s. 258). Bu baxımdan geyim etnik kimliyin həm fərdi, həm də kollektiv səviyyədə ifadə olunmasında əhəmiyyətli göstərici hesab olunur.

Azərbaycan folklor mətnlərində yer alan geyim adları xalqın tarixi təcrübəsini, dünyagörüşünü və mədəni dəyərlər sistemini əks etdirən əhəmiyyətli mədəni kodlar kimi çıxış edir. Çünki "hər bölgədəki insan mədəniyyətinə görə bir bölgə ilə digər bölgə arasındakı geyim fərqli olmağa meyllidir və bu da ətraf mühitin təsirinə məruz qalır. Hər bölgədəki geyimdəki fərq, hər bölgənin bir-birindən fərqli ola biləcək adət-ənənələri, vərdişləri, həyat tərzləri və fərqli sosial-mədəni mühitləri olmasıdır" (Tajuddin, 2018, s. 24). Bu da göstərir ki, dastanlar, nağıllar, bayatılar və mərasim folkloru nümunələrində geyim terminlərinin istifadəsi təsadüfi xarakter daşımır, əksinə, mətnin ideya yükünü gücləndirən semantik vasitə kimi işlədilir. Bu terminlər folklor mətnlərində sosial mühitin, tarixi dövrün və mədəni kontekstin tanınmasına imkan yaradır. Geyim adları vasitəsilə oxucu və ya dinləyici mətndə təsvir olunan obrazın sosial statusu, cinsi, yaşı və bəzən də regional mənsubiyyəti haqqında dolayısı ilə məlumat əldə edir. Çünki yaylıq, şal, örpək, kəlağayı kimi geyim elementləri folklor mətnlərində yalnız zahiri təsvir vasitəsi deyil, eyni zamanda cinsiyyət rolları, sosial status və mərasim kontekstləri ilə bağlı simvolik mənalar daşıyır.

Qadın geyimlərinə dair terminlər isə folklor mətnlərində daha çox ailə dəyərləri, namus, təvazökarlıq və estetik anlayışlarla əlaqələndirilir. Məsələn, kəlağayı yalnız baş örtüyü kimi deyil, qadın kimliyinin, ailə statusunun və sosial davranış normativlərinin göstəricisi kimi təqdim olunur. Kəlağayı, baş örtüsü, əsasən Azərbaycan qadınları tərəfindən geyilən ipək sapdan hazırlanmış kvadrat formasında olur. "Azərbaycanda kəlağayıları bir vaxtlar yeni qurulan bir ailənin təməli hesab olunurdu" (İsmayılov, Khudiyeva, 2025, s. 712). Bu toy mərasimi zamanı nişan üzüyü qırmızı kəlağayıya bükülərək qız tərəfinə hədiyyə edilirdi

Müxtəlif folklor nümunələrində qadının geyimi onun ailə daxilindəki mövqeyini, cəmiyyətdə qəbul edilən davranış çərçivələrini və əxlaqi dəyərləri əks etdirən mühüm elementə çevrilir. Bu baxımdan geyim terminləri gender rollarının mətndaxili qurulmasında və legitimləşdirilməsində mühüm funksiyanı yerinə yetirir.

Folklor mətnlərində geyim adlarının sabit semantik çərçivədə işlədilməsi mədəni yaddaşın qorunmasına və nəsillərarası ötürülməsinə xidmət edir. Bu sabitlik sayəsində geyimlə bağlı mədəni məlumatlar zaman və məkan dəyişsə belə kollektiv şüurda öz yerini qoruyub saxlayır. Geyim terminləri folklor mətnlərində dəyişməz mənalarla təqdim olunaraq etnik kimliyin davamlılığını təmin edən vasitələrdən birinə çevrilir. Beləliklə, folklor mətnlərini həm də mədəni yaddaşın qorunaraq saxlandığı xəzinə sandığı da adlandıra bilərik. Folklordan fərqli olaraq müasir dövrdə isə geyimin funksional və simvolik məzmununda müəyyən dəyişikliklər müşahidə edilir. Qloballaşma, urbanizasiya və kütləvi mədəniyyətin təsiri nəticəsində ənənəvi geyim elementləri gündəlik istifadədən tədricən çıxmışdır. Müasir şəhər mühitində geyim daha çox qlobal moda trendləri və fərdi

estetik seçimlər əsasında formalaşır. "Moda, kimlik, cəmiyyət və üslub arasındakı mürəkkəb qarşılıqlı əlaqəni təcəssüm etdirən güclü bir mədəni ifadə forması kimi xidmət edir" (Nair, 2024, s. 34). Həmçinin "moda istehlakçıların sosial qəbul, yenilik, gözəllik və dəyişiklik üçün emosional ehtiyacları ilə əlaqələndirilir" (Niinimaki, 2021, s. 257). Bu proses ənənəvi geyimlərin praktik funksiyasını zəiflətmiş, lakin onların simvolik və nümayiş xarakterini gücləndirmişdir. Bu da onu göstərir ki, "xalq geyiminə keçmişin qalığı kimi deyil, keçmişə güvənərək indiki dövrdə istehsal olunan müasir mədəni əsər kimi baxılmalıdır" (Rašić, 2026, s. 1083).

Bununla belə, ənənəvi geyim elementləri milli bayramlar, folklor festivalları, toy mərasimləri və mədəni tədbirlər vasitəsilə simvolik dəyərini qorumaqda davam edir. Bu kontekstlərdə geyim artıq gündəlik məişət elementi deyil, milli kimliyin nümayiş etdirilməsi və kollektiv yaddaşın canlandırılması vasitəsi kimi çıxış edir. Müasir dövrdə ənənəvi geyimlər daha çox səhnə, muzey və mərasim mühiti ilə əlaqələndirilir ki, bu da onların funksional statusunun dəyişdiyini göstərir.

Müasir kontekstdə geyim daha çox fərdi seçim və estetik ifadə vasitəsi kimi çıxış etdiyi halda, folklor mətnlərində kollektiv kimliyin və mədəni bütövlüyün göstəricisi kimi təqdim olunur. Bu fərq geyimin sosial funksiyasının zamanla necə transformasiyaya uğradığını açıq şəkildə nümayiş etdirir. Folklor mətnlərində geyim kollektiv dəyərləri möhkəmləndirən və normativ çərçivələri qoruyan vasitə olduğu halda, müasir dövrdə geyim fərdi kimliyin ifadəsinə xidmət edir. "Araşdırma göstərir ki, müasir kulturoloji tədqiqatlarda geyim fakturası etnik irsin və kollektiv yaddaşın vizual göstəricisi kimi qəbul edilir" (Rocamora & Smelik, 2022, s. 24). Xüsusilə ənənəvi xalq geyimlərində rənglər estetik seçimdən daha çox, mədəni dəyərləri və mərasim mənalarını ifadə edən bir vasitədir.

Bizim apardığımız sorğu nəticələri də bu elmi yanaşmanı tamamilə təsdiqləyir. Belə ki, respondentlərin 92.5%-i kənd mühitində ənənəvi geyimi (məsələn, ağ və ya qırmızı yaylığı) sadəcə moda deyil, məhz mədəni və ritual bir simvol kimi qəbul edir. Maraqlıdır ki, şəhər mühitində bu göstərici 70%-ə düşsə də, hələ də yüksəkdir, bu isə o deməkdir ki, geyimin daşıdığı sosial-semiotik məna mühitdən asılı olmayaraq insanların kollektiv yaddaşında öz dəyərini saxlayır. Bu rəqəmlər sübut edir ki, Azərbaycan insanı üçün geyim hələ də öz kimliyini ifadə etməyin ən kəsə yollarından biridir.

Bu kontekstdə baş örtüyü, yəni xalq arasında "yaylıq" adlandırılan geyim elementi Azərbaycan folklorunda həm gündəlik həyatın bir parçası, həm də müxtəlif mərasimlərdə istifadə olunan mühüm simvol kimi çıxış edir. O, yalnız örtük funksiyası daşımır, eyni zamanda dərin mədəni və mənəvi məzmun ifadə edir. Məhz buna görə də Azərbaycan cəmiyyətində yaylıq yalnız geyim elementi kimi deyil, həm də müəyyən sosial sərhədləri və dəyərləri ifadə edən mühüm mədəni göstərici kimi qəbul olunur. Bu "mənəvi sərhəd" anlayışı xüsusilə Naxçıvan bölgəsində və ümumilikdə Azərbaycan folklorunda geniş şəkildə özünü göstərir. Dastanlarda, bayatılarda, əfsanələrdə, ata sözlərində, eləcə də toy və yas mərasimlərində yaylığın bu mənası açıq şəkildə hiss olunur.

Burada yaylıq artıq bədəni örtən sadə bir əşya olmaqdan çıxaraq etnik kimliyin, ictimai normaların və mədəni dəyərlərin maddi ifadəsinə çevrilir. Xalq yaddaşında isə yaylıq həm ailə namusunun qoruyucusu, həm də nəsillər arasında mənəvi bağlılığı təmin edən güclü bir inanc simvolu kimi qəbul olunur.

Yaylıq Azərbaycan folklorunda və milli geyim mədəniyyətində sadəcə qadınların başını örtmək vasitəsi deyil, eyni zamanda etnik kimliyin və türk mənşəli mədəni dəyərlərin qorunmasına xidmət edən əsas elementlərdən biridir. Bu geyim növü xüsusilə qadınlar arasında kimliyin, ailə və cəmiyyət daxilindəki sosial rolun, eləcə də adət-ənənələrin görünən simvolu kimi çıxış edir. Məsələn, Naxçıvan folkloruna nəzər saldıqda yaylığın gəlinin və ya gənc qızın mərasim geyiminin ayrılmaz tərkib hissəsi olduğu aydın şəkildə müşahidə olunur.

Yaylığın naxışları, rəngləri və ornamentləri bölgədən bölgəyə dəyişir ki, bu da regional etnik xüsusiyyətləri və cəmiyyət daxilində müxtəlif sosial statusları ifadə edir. Bu baxımdan yaylıq etnik kimliyin ifadəsində çoxqatlı funksiyaya malikdir:

**Fiziki və vizual simvol kimi:** Geyilən yaylıq qadının yaşını, evli olub-olmamasını və hansı bölgədən olduğunu dərhal bildirir. Aparılan müşahidələr də bunu təsdiqləyir: kənd yerlərində baş

örtüyü istifadə edən qadınların böyük əksəriyyəti - təxminən 80%-i (50 qadından 40-ı) 50-90 yaş arasıdır. Bu isə ənənənin daha çox yaşlı nəsil tərəfindən qorunduğunu göstərir.

**Mədəni və simvolik funksiya**: Toy və digər mərasimlərdə yaylıqdan istifadə olunması onun milli və sosial dəyərlərin daşıyıcısı olduğunu göstərir. Yaylıq vasitəsilə toplumsal nizam və mədəni davamlılıq qorunur.

Bu xüsusiyyətlər folklor nümunələrində də açıq şəkildə əks olunur. Naxçıvan bayatılarında, nağıllarında və xalq hekayələrində yaylıq xüsusilə gəlin, gənc qız və qadınların cəmiyyətdəki statusunu və rolunu vurğulayan mühüm detal kimi təqdim edilir. Xınayaxdı və digər mərasimlərdə yaylığın gəlinin başında və ya çiyinlərində nümayiş etdirilməsi onun yalnız fərdi geyim elementi deyil, həm də sosial və mədəni mərasimlərin ayrılmaz hissəsi olduğunu göstərir.

Yaylığın rəngləri və naxışları da xüsusi simvolik məna daşıyır. Belə ki, ağ rəng saflığı və təmizliyi, qırmızı isə sevgi və xoşbəxtliyi ifadə edir. Ornamentlər isə bölgələr üzrə fərqli estetik zövqü və yerli mədəni xüsusiyyətləri əks etdirir.

Fərqli bölgələrdə istifadə olunan yaylıqlar, ictimai status, evlilik ənənələri və qadının cəmiyyətdəki roluna aid məlumat verir. Müqayisəli araşdırmalar göstərir ki, Anadolu və Qafqaz folklorunda da yaylıqlar, gəlinin sosial statusunu və ailəyə bağlılığını ifadə edən simvol kimi önə çıxır. Bu baxımdan, yaylıq həm estetik, həm də sosial-mədəni baxımdan çoxsahəli əhəmiyyətə malikdir. Nəticədə, yaylıq yalnız gəlinin kimliyini və ictimai mövqeyini simvollaşdırmaqla kifayətlənmir, eyni zamanda Azərbaycan cəmiyyətində kollektiv dəyərlərin və ritual normaların qorunmasını təmin edən mədəni vasitərdən biridir.

Araşdırmalar göstərir ki, yaylıqların istifadəsi yer və sosial mühitə uyğun olaraq dəyişir. Toy, bayram və digər mərasimlərdə qadınlar baş örtüklərində əsasən qırmızı, ağ və müxtəlif rənglərdən istifadə edirlər ki, bu rəng seçimi mərasimlərin sevinc və bayram xarakterini əks etdirir. Hüzün və matəm günlərində isə baş örtüklərində daha çox tünd rənglər, xüsusilə qara, göy və qəhvəyi üstünlük təşkil edir. Bu rəng seçimi, həm vizual, həm də simvolik olaraq ictimai duyğuların ifadəsini təmin edir.

Empirik müşahidələr göstərir ki, bəzi bölgələrdə yaylıqdan gündəlik istifadə də mövcuddur. Bu hallar əsasən yaşlı nəsil arasında daha çox rast gəlinir. Məsələn, sahə tədqiqatlarında kənd ərazilərində (Naxçıvanın Nehrəm kəndi, Ordubad rayonunun Gənzə kəndi) 50 baş örtülü qadından 40-ı (80 %) 50–90 yaş arası, yalnız 10 nəfəri (20%) isə 20–50 yaş arasında idi. Bir çox kənd və rayonlarda müşahidələr aparanda demək olar 50+ yaşlı xanımların çoxu başı örtülü idi. Şəhər mühitində də yaşlı nəslin ənənəyə bağlılığı müşahidə olunsa da, rəqəmlər kəndlə müqayisədə daha aşağıdır. Şəhərdə 65+ yaşlı xanımlar arasında aparılan müşahidədə 25 nəfərdən yalnız 5-nin (20%) baş örtüyündən (gündəlik həyatda) istifadə etdiyi müəyyən edilmişdir. Ancaq dərin araşdırma onu göstərdi ki, bu qadınların çoxu əslən kənd, rayon adamı olmuş, sonralar şəhərə köçüb kök salmışlar. Ona görə də onlarda kənd adət və ənənəsi davam etdirilir. Bu nəticə yaylığın ənənəvi funksiyasının kənd və rayonlarda yaşayan yaşlı nəsildə daha çox qorunub saxlanıldığını göstərir.

Qeyd edək ki, bölgələrdə yaylığın rəngi həm də sosial məlumat daşıyır. Yolda rast gəlinən xanımın baş örtüyünün rəngi onun gedəcəyi yer və ya haradan gəldiyi barədə müəyyən ipucları verir. Sahə tədqiqatı zamanı biz də buna şahid olduq. Belə ki, kənddə bir çox qaqdınla rastlaşdıq. Onların al-əlvan, rəngli, bəzəkli yaylıqlarından bilmək olurdu ki, bunlar toy bayrama gedir. Bu da onu göstərir ki, yaylıq yalnız geyim deyil, həm də insanların sosial və mədəni vəziyyətini göstərən vasitədir.

**Gəlinin Evdən Çıxarılması Mərasimində Milli Dəyərlərin Qorunması**

Azərbaycan folklorunda yaylıq, xüsusilə toy mərasimlərində həm estetik, həm də mədəni vəzifə daşıyır. Məsələn, "toy adətlərimizdən biri də gəlini evdən çıxardanda üzünə qırmızı yaylıq örtülməsidir" (Rzayeva, 2024, s. 170). Bu isə gəlinin yeni həyata qədəm qoymasını və qoruyucu simvolik mənasını ifadə edir. Həmçinin bu hər gün istifadə edilən yaylıqlardan fərqlənir. Çünki "...gündəlik fəaliyyətlər üçün istifadə edilən geyimlər və müəyyən tədbirlərdə geyilən, üzərində örtülü mesajlar olan geyimlər" (Tajuddin, 2018, s. 22) bir-birindən seçilir. Gəlinin evdən çıxarılması mərasimində, uzun yaylıq gəlinin başından və çiyinlərindən aşağıya doğru örtülür. Bu örtü yalnızca gəlinin bədəninə olan mahrəmiyyəti qorumaqla qalmır, həmçinin milli və cəmiyyətə aid dəyərlərin

qorunmasını simvollaşdırır. Bəzi bölgələrdə yaylığın uzunluğu, gəlinin ailə və toplum içərisindəki nüfuzunu, iffətini (ismət-abır) təmsil edir.

Gəlin evdən çıxarkən başına və çiyinlərinə örtülən yaylıq, onu sosial və mədəni baxımdan yüksək dəyərlərə malik bir şəxsiyyət olaraq təqdim edir. Xalq inanışına görə, yaylığın geniş və uzun olması gəlinin ailəsinin sosial hörmətini və nüfuzunu qoruyur, həm mənəvi, həm də fiziki müdafiə funksiyasına malikdir. Bu örtü, yalnız estetik və praqmatik deyil, eyni zamanda mədəni bir əhəmiyyət daşıyır. Folklor materialları gəlinin evdən çıxarılması zamanı örtükdən istifadənin ritualın mərkəzi elementi olduğunu təsdiqləyir. Məsələn, Qərbi Azərbaycan folklor nümunələrində gəlinin geyim kompleksi belə təsvir olunur: “Gəlinin əyninə tuman və kofta geyindirilir, başına qırmızı kəlağayı atırdılar, üstündən də ağ örpək örtürdülər” (Rüstəmzadə, 2024, s. 53). Bu təsvirdəki rəng simvolikası (qırmızı və ağ) saflığın, bərəkətin və yeni ailəyə keçidin mənəvi kodlarını daşıyır.

Bu kontekstdə gəlin, fərdi kimliyindən ayrılaraq ictimai bir simvola nəslin şərəf və mənəviyyat daşıyıcısına çevrilir. Yaylığın gəlinin üzünü örtməsi həm də bir “keçid dövrü” sakrallığını qoruyur. Naxçıvan (Şərur) folklorundan gətirilən növbəti nümunə bu ritualın lokal-spesifik xüsusiyyətlərini və mədəni davamlılığını nümayiş etdirir: “Gəlini evdən çıxaranda onun üzünə qırmızı qlas yaylıqdan örpək salar, örpəyin üstündən isə ayna vurardılar” (Süleymanova, 2023, s. 91).

Burada ayna elementi xüsusi diqqət çəkir. O, təkcə işığı və aydınlığı əks etdirmir, həm də gəlini “yad nəzərlərdən” qoruyan simvolik bir qalxan rolunu oynayır. Bu ayna, əslində, cəmiyyətin gəlinə baxışını vizuallaşdırır, insanlar bu örtüyə və aynaya baxarkən orada sadəcə bir fərdi deyil, bir nəslin namusunu, gələcəyini və mənəvi bütövlüyünü görür. Bu ritual vasitəsilə etnik kimlik və əxlaqi dəyərlər sözlə deyil, vizual simvollarla nəsildən-nəslə ötürülür. Şərur folklorunda qorunub saxlanılan bu detal, Azərbaycan türklərinin məişətində ailə şərəfinin necə yüksək tutulduğunun və bu keçid ayininin nə qədər sakral bir məna daşıdığının canlı sübutudur. Bundan başqa aynanın bu ritualdakı funksiyası qədim türk mifologiyasındakı işıq fəlsəfəsi ilə dərindən bağlıdır. Türk təfəkküründə işıq sadəcə fiziki bir hadisə deyil, ilahi varlığın (Yaradılışın) yer üzündəki təzahürü və qaranlıq güclərə (şərə) qarşı ən güclü səddir. Gəlinin üzünə ayna vurulması da məhz bu işığı maddi müstəvidə canlandırır. Ayna özünə düşən nuru əks etdirərək gəlini və onun gətirdiyi bərəkəti metaforik bir “işıq dairəsi” içinə alır. Bu, qədim “işıqdan doğulma” və ya “nurla qorunma” inancının toy adətindəki vizual qalığıdır. Nəticədə gəlin sadəcə bir ailədən digərinə keçmir, həm də işığın himayəsində olan müqəddəs bir missiyanın daşıyıcısına çevrilir.

Örpək sadəcə qoruyucu bir vasitə deyil, həm də qadın zərifliyini və milli kimliyi tamamlayan ən vacib atributdur. Məşhur folklor nümunəsində deyildiyi kimi:

Bal kimidir dilləri,
Pambıq kimi əlləri,
Örpəkdə də gözəldi,
Təbrizin gözəlləri

*(Ceferli vd., 2012, s. 378).*

Bu nümunə yaylığın, örpəyin, kəlağayının təmizlik və incəliklə bağlı olan simvolik mənalarını da vurğulayır. Burada “örpəkdə də gözəldi” ifadəsi xüsusi əhəmiyyət kəsb edir. Bu, o deməkdir ki, örtük gəlinin gözəlliyini gizlətmir, əksinə, ona mənəvi bir nur və milli kolorit qataraq həmin gözəlliyi daha da ucaldır. Təbriz gözəllərinin örpəklə vəsf olunması bu geyimin həm də geniş bir coğrafi arealda – bütöv Azərbaycan mədəniyyətində ortaq bir dəyər simvolu olduğunu göstərir.

Qeyd edək ki, folklorda qıza nişan taxılan zaman başına qırmızı örpək örtülməsi adətinə də rast gəlirik: “Hamı xeyir-dua verər, üzük qızın sol əlinin adsız barmağına taxılar, başına qırmızı kəlağayı-yaylıq örtülər, hamı əl çalardı” (Süleymanova, 2023, s. 81).

Bu müasir dövrdə belə, yaylıq, yalnız bir geyim əşyası olmaqdan daha çox, mədəni dəyərlərin qorunması və sosial nizamın təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Həm şəhər, həm də kənd əhalisi arasında sorğu keçirildi. Aparılan sahə araşdırması göstərir ki, Azərbaycan ənənəsində gəlinin evdən çıxarılması ritüeli həm sosial, həm də mədəni dəyərlərin qorunmasına xidmət edir.

Tədqiqata cəlb olunmuş 73 qadından 51 nəfəri evdən gəlin köçərkən ənənəvi qırmızı örpəkdən istifadə etdiyini, 22 nəfəri isə müasir trendlərə uyğun olaraq bu adətdən imtina etdiyini bildirmişdir. Bu statistik fərqlilik simvolik davranışların nəsillər arası dəyişməsini göstərir. Belə ki, "müxtəlif yaş qrupları ətraf mühitdəki hadisələrə fərqli şəkildə reaksiya verir və bu reaksiyalar onları xarakterizə edən dəyərləri və davranış qanunlarını formalaşdırır" (Bartha ed.al, 2025, s.284). Əslində 73 nəfərdən 51-nin (təxminən 70%) hələ də bu ənənəni yaşatması, Barthanın qeyd etdiyi "davranış qanunlarının" cəmiyyətdə hələ də güclü olduğunu sübut edir. 22 nəfərin (təxminən 30%) müasir yanaşması, ətraf mühitdəki qlobal trendlərin (modernləşmənin) gətirdiyi yeni dəyərlərin nəticəsidir.

Kənd mühitində apardığım sorğu (60 qadın arasında) mənzərənin şəhərdən xeyli fərqli olduğunu üzə çıxardı. Burada gəlinlərin 55-i (91.7%) üzünü örtdüyünü, cəmi 5-i (8.3%) isə örtmədiyini bildirdi. Bu empirik nəticələr göstərir ki, kənddə toy günü qırmızı örpəkdən istifadə edənlərin sayı şəhərlə müqayisədə kəskin şəkildə çoxdur (Şəhərdəki 70%-ə qarşı kənddə 91.7%). Bu fərq birbaşa onu sübut edir ki, milli və mənəvi dəyərlər, eləcə də qədim adət-ənənələr bölgələrdə daha stabil qalıb və qorunur. Şəhərdə modernləşmənin təsiri daha güclü hiss edilsə də, kənd mühitində ənənəvi davranış modelləri hələ də dominantlığını qoruyur.

Bu tendensiya, urbanizasiyanın və modernləşmənin milli geyim və rituel elementlərinin qorunmasına təsirini əks etdirir. Şəhər əhalisi yeni trendləri daha tez mənimsəyərək ənənəvi praktikaları arxa plana keçirdiyi halda, kənd mühitində mənzərə fərqlidir.

Sorğu nəticəsində diqqətçəkən digər bir məqam gəlinlərin bu ritualı hansı motivlərlə yerinə yetirməsidir. Məlum oldu ki, respondentlərin böyük əksəriyyəti qırmızı örpəkdən hər hansı kənar təzyiq olmadan, öz istəyi ilə istifadə edib. Bununla belə, müəyyən bir qisim gəlin bu addımı ana, nənə və ya qaynananın tövsiyəsi/istəyi əsasında atdığını bildirmişdir. Bu fakt onu göstərir ki, yaşlı nəsil adət-ənənələrin qorunub saxlanılmasında "ötürücü" və "nəzarətçi" rolunu oynayır. Gəlinlərin fərdi seçimi ənənənin daxili mənimsənilməsini, yaşlı nəslin müdaxiləsi isə sosial mirasın davamlılığını təmin edən əsas amillərdir.

Gəlinin evdən çıxarılması ritualında qırmızı örtükdən istifadənin mühitə görə müqayisəsi.

| Mühit | Respondentlərin sayı (N) | Qırmızı örtüklə (Sayı) | Örtməyənlər (Sayı) | Qırmızı örtüklə (%) | Örtməyənlər (%) |
|---|---|---|---|---|---|
| **Şəhər** | 73 | 51 | 22 | 69.9% | 30.1% |
| **Kənd** | 60 | 55 | 5 | 91.7% | 8.3% |
| **Cəmi** | **133** | **106** | **27** | **79.7%** | **20.3%** |

**Yaylığın Münaqişələri Yatırmadakı Rolu**

Yaylıq folklorik mətnlərdə yalnız gündəlik məişət əşyası kimi deyil, eyni zamanda dərin mənəvi və simvolik funksiyalara malik bir mədəni obyekt kimi çıxış edir. Azərbaycan xalq ənənəsində olduğu kimi digər türk dilli xalqların mədəniyyətində də baş örtüyü və ya yaylıq müqəddəslik, toxunulmazlıq və qoruyuculuq məzmunu daşıyır. Tədqiqat göstərir ki, Azərbaycan və digər türk dilli xalqların folklorunda yaylığın, baş örtüyünün yerə atılması sadəcə fiziki bir akt deyil, münaqişəni dərhal dayandıran bir ritualdır. Bu ənənə yaşlı qadınların ənənəvi cəmiyyətdə bəzi məqamlarda kişi sözündən keçərli sözə sahib olduğunu göstərir. "Belə bir barışdırıcı missiya türk xalqlarının ortaq etno-etik dəyərlər sisteminin və sosial nizamı qoruyan vizual kodların təzahürüdür" (Arslan, 2021, s. 318). "Qadınların sülh və barış üçün səyləri barış inşasına fərqli yanaşmaları gətirir..." (Mbabazi, ed. al. 2020, s. 134) Və bu qadın mənəviyyatının ənənəvi cəmiyyətdəki sarsılmaz nüfuzunu və sosial nizamın bərpasındakı tənzimləyici rolunu təsdiqləyir. Bu kontekstdə yaylığın münaqişə tərəfləri arasına atılması, sadəcə bir sülh çağırışı deyil, həm də qadın şərəf və ləyaqətinin toxunulmazlığına söykənən mənəvi bir avtoritetin nümayişidir. Mbabazi-nin vurğuladığı bu "adın gücü", Azərbaycan folklorunda yaylığın müqəddəsliyi və ana haqqının ucalığı ilə birləşərək, ən mürəkkəb sosial qarşıdurmaları dayandırmaq qüdrətinə malik olan unikal bir sülh vasitəsinə çevrilir. Bu xüsusiyyət türk xalq ənənəsində yaylığın dava yatırtma funksiyasının qədim dövrlərdən formalaşdığını və bu günədək yaşadıldığını göstərir. Xüsusilə tayfa, aşirət və ya qəbilələrarası qarşıdurmalar zamanı yaşlı

qadının başındakı örtünü açaraq mübahisə edən tərəflərin önünə atması müqəddəs bir işarə kimi qəbul edilir. Bu hərəkət qarşıdurmanın dərhal dayandırılmasını və tərəflər arasında barışığın təmin olunmasını şərtləndirir. Bu fakt qadın müdrikliyinin və ana haqqının toxunulmazlığını ifadə edir. Burada Peyğəmbər əfəndinin "Cənnət anaların ayağı altındadır" ifadəsi də xatırlanır. Belə inanılır ki, yaylığın üzərindən keçmək və ya ona hörmətsizlik etmək ağır mənəvi günah sayılır. Sözügedən ənənə yalnız tarixi mənbələrdə deyil, müasir dövrdə də müxtəlif formalarda yaşamaqdadır.

Xalq yaddaşında qorunan bu motiv türk filmlərində və televiziya əsərlərində tez-tez müşahidə olunur. Bu isə yaylığın mədəni simvol kimi aktuallığını qoruduğunu göstərir. Yaylığın barışdırıcı missiyası kollektiv şüurda sülh və ədalət ideyalarının daşıyıcısı kimi çıxış edir. Bu mədəni praktika türk dilli xalqların ortaq dəyərlər sistemini əks etdirir. Onun folklorik mətnlərdə və canlı ənənədə yaşaması etnik kimliyin formalaşmasında mühüm rol oynayan amillərdən biridir. Beləliklə, yaylıq türk dilli xalqları digər etnik qruplardan fərqləndirən əsas mədəni göstərici kimi qiymətləndirilə bilər.

Yaylığın dava yatırma funksiyasının empirik təhlili folklor nümunələri, vizual materiallar və mədəni praktikaların müşahidəsi əsasında aparılmışdır. Xüsusilə yaşlı nəsil arasında kök salmış ənənəyə görə, hörmətli bir qadının yaylığını açaraq münaqişə tərəflərinin ortasına atması mütləq sülh siqnalı hesab olunur. Bu hərəkətin sosiokültürəl mənası "namusumu yerə atdım" deməkdir. Əgər silahlar susmasa və dava dayanmasa, bu, qadın şərəfi və kollektiv namusun tapdalanması kimi qəbul edilir. Folklor örnəklərində də bu ritualın barışdırıcı gücü açıq şəkildə ifadə olunur: "Yaylığını açır bunun ayağının altına tulluyur ki, mənim bu yaylığıma bağışdıyın" (Qasımova, Rüstəmzadə, 2020, s. 95). Folklor mətnindəki "yaylığa bağışlamaq" ifadəsi cəmiyyətin mənəvi dəyərlər sistemini ortaya qoyur. Burada yaylıq sadəcə bir parça deyil, tərəflər arasında hüquqi və mənəvi bir saziş (müqavilə) rolunu oynayır. Qadının yaylığını ayaq altına atması öz şəxsi nüfuzunu sülh naminə fəda etməsidir ki, bu da rəqib tərəf üçün geri çəkilməkdən başqa seçim qoymur. Çünki bu ritualdan sonra davanı davam etdirmək artıq qarşı tərəflə deyil, birbaşa cəmiyyətin toxunulmaz saydığı "ana namusu" ilə mübarizə aparmaq deməkdir.

Müasir dövrdə gənc nəsil bu hadisəyə fərqli interpretasiyalarla yanaşsa da, yaylığın "sülh yaratma missiyası" nəsillərarası transformasiyaya uğramayan nadir və toxunulmaz ənənələrdən biri kimi qalmaqdadır. Bu, ritualın funksional dəyərinin zamanın sınağından keçərək öz sosial çəkisini qoruduğunu sübut edir.

Maraqlıdır ki, bu simvolik güc yalnız bizim coğrafiya ilə məhdudlaşmır. Eyni kökdən gələn bənzər davranış modelləri Anadolu türklərinin etnoqrafik mənzərəsində də aydın şəkildə özünü göstərir. Xüsusilə Şərqi və Cənub-Şərqi Anadolu bölgələrində aparılan müşahidələr təsdiq edir ki, yaşlı qadınların yaylıq vasitəsilə münaqişəyə müdaxilə etməsi bu gün də kollektiv yaddaşda canlılığını qoruyur. Sahə araşdırmalarında iştirak edən respondentlərin əksəriyyəti yaylığın yerə atılmasının birbaşa "davanın bitməsi" mənasına gəldiyini xüsusi vurğulayırlar. Bu fakt bir daha göstərir ki, yaylıq sadəcə bir parça deyil, real sosial təsir gücünə malik olan, həm Azərbaycanda, həm də Anadoluda eyni dərəcədə hörmət edilən tarixi bir "sülh aləti"dir. Bu sosiokültürəl fenomenin müasir cəmiyyətdəki yerini və vizual yaddaşdakı gücünü izləmək üçün audiovizual mətnlərə kino və serial sənətinə müraciət etmək vacibdir. Belə ki, xalq yaddaşına həkk olunmuş bu ritual müasir türk kinematoqrafiyasında da mənəvi avtoritetin simvolu kimi davamlı şəkildə təmsil olunur.

Bu baxımdan "Halef: **Köklərin Çağırışı"** serialının 15-ci bölümündə təqdim edilən səhnə tədqiqatımız üçün əhəmiyyətli empirik nümunə kimi dəyərləndirilə bilər. Sözügedən epizodda Sultan xanımın silahlı qarşıdurma təhlükəsi yaranan anda başındakı yaylığı açaraq münaqişə tərəflərinin arasına atması, ritualın dramatik və real gücünü nümayiş etdirir. Bu hərəkətlə tərəflərin silahlarını yerə qoyaraq geri çəkilməsi, yaylığın fiziki bir qüvvəyə deyil, kollektiv mədəni yaddaşa əsaslanan sarsılmaz bir barışdırıcı bir vasitə olduğunu təsdiqləyir. Beləliklə, Sultan xanımın timsalında "ağbirçək" qadın obrazı və onun yaylığı, ən gərgin münaqişə anında belə qanunları üstələyən mənəvi bir hakim funksiyasını yerinə yetirir.

Bu sosiokültürəl fenomenin vizual yaddaşdakı davamlılığını təkcə "Halef: **Köklərin Çağırışı**" serialında deyil, həm də geniş auditoriyaya malik olan "Hercai" serialında da izləmək mümkündür. Serialın üçüncü bölümündə Azize obrazının baş örtüyünü (yaylığını) münaqişənin ortasına atma anı,

ritualın mənəvi gücünün ən kəskin təsvirlərindən biridir. Əgər Sultan xanım timsalında yaylıq daha çox "mərhəmətli sülh" rəmzi idisə, Azizə obrazında bu hərəkət nəsillər arasındakı "şərəf və kollektiv intizamın" ən yüksək həddi kimi təqdim olunur.

Hər iki ekran əsərindən gətirilən bu nümunələr sadəcə bədii təxəyyülün məhsulu deyil, real mədəni davranış formalarının kino dili ilə təsdiqidir. Bu səhnələr sübut edir ki, yaylıq ritualı həm Azərbaycanda, həm də Anadoluda hələ də ən gərgin sosial münaqişələri dayandıra biləcək "yazılmamış qanun" statusunu qoruyur. Beləliklə, aparılan empirik təhlil aydın göstərir ki, yaylığın dava yatırma funksiyası yalnız mifoloji və ya folklorik mətnlərlə məhdudlaşmır. Türkiyə nümunələri (Halef və Hercai serialları) əsasında aparılan bu analiz yaylığın barışdırıcı və qoruyucu missiyasının sadəcə keçmişin qalığı olmadığını, praktik və müşahidə edilə bilən canlı mədəni fakt olduğunu sübut edir. Yekun olaraq deyə bilərik ki, yaylıq ritualı türk dilli xalqların ortaq etnik-mədəni kodlarından biri kimi nəsillərarası körpü rolunu oynayır.

## Nəticə

Araşdırmalar göstərir ki, Azərbaycan folklorunda başörtüsü, yaylıq, örpək və kəlağayı yalnız estetik və funksional əşyalar deyil, həm də etnik kimliyin və mədəni dəyərlərin ifadəsində mühüm simvollardır. Xüsusilə başörtüsü və yaylıq qadınların mədəni və sosial statusunu müəyyənləşdirir, həmçinin türk xalqlarında qədimdən gələn ənənə olaraq münaqişələri yumşaltmaq və sosial ahəngi qorumaq funksiyasına malikdir. Bu geyim elementləri Azərbaycanda etnik kimliyin qorunması və mədəni dəyərlərin nəsillərarası ötürülməsində əvəzsiz rol oynayır. Onlar milli mədəniyyətin və folklor ənənələrinin zamanla dəyişsə də davamlılığını qoruyan simvolik strukturlar kimi çıxış edir. Və bu geyim analizi cəmiyyətin etnik kimliyi, sosial dəyərləri və mədəni bütövlüyünü daha dərindən anlamağa imkan yaradır.

## Ədəbiyyat

1. Akcan, E., & Blaha, K. (2023). Opinion of primary school teachers about culturally responsive education practices used in life studies lessons: Implementation of practices from the US to Turkey. *International Journal of Modern Education Studies, 7*(1), 1–20. https://files.eric.ed.gov/fulltext/EJ1395938.pdf
2. Arslan, S. (2021). Ethno-ethics and material culture in Turkic traditions. *Asian Anthropologist, 20*(4), 312–329. https://doi.org/10.1080/1683478X.2021.1945672
3. Babaýewa, A. (2022). National belts as ethnographic wealth of our country. *Journal of National Culture Studies, 6*(2), 127–133. https://doi.org/10.55774/mikad.1202173
4. Bartha, A., Jánosi, K., & Malatyinszki, S. (2025). Generational bridges and gaps. *Journal of Cultural Analysis and Social Change, 10*(3), 282–292. https://doi.org/10.64753/jcasc.v10i3.2408
5. Bünyadov, T. (2007). *Azərbaycan etnoqrafiyası* (C. 2). Bakı: Şərq–Qərb.
6. Cəfərli, M., & Babayev, R. (2012). *Naxçıvan folkloru* (C. 3). Naxçıvan: Əcəmi.
7. İsmayılov, N., & Khudiyeva, V. (2025). Azerbaijani cultural heritage tradition – Kelaghayi (documentary flow and source studies). *Akademik Tarih ve Düşünce Dergisi, 12*(3), 706–717.
8. Jhangra, S. (2025). The role of traditional attire in modern fashion: A study of cultural resilience and adaptation. *Indian Journal of Fashion Technology, 2*(1), 12–16. https://doi.org/10.36676/ijft.v2.i1.9
9. Mbabazi, V., Naiga, R., & Nambalirwa, H. N. (2020). Towards gendered peacebuilding processes for sustainable peace. *Jadavpur Journal of International Relations, 24*(2), 133–151. https://doi.org/10.1177/0973598419896441
10. Nair, M. (2024). Fashion as cultural expression: Exploring the intersection of identity, society, and style. *Shodh Sagar Journal of Language, Arts, Culture and Film, 1*(1), 31–35. https://doi.org/10.36676/jlacf.v1.i1.6

11. Niinimäki, K. (2021). Clothes sharing in cities: The case of fashion leasing. In T. Sigler & J. Corcoran (Eds.), *The modern guide to the urban sharing economy*. Edward Elgar, 254–266 https://doi.org/10.4337/9781789909562.00027
12. Orujov, A., və b. (2006). *Azərbaycan dilinin izahlı lüğəti* (C. 1). Şərq–Qərb.
13. Özdil, M. A. (2021). The effect of clothing as a marker on identity. *Motif Akademi Halkbilimi Dergisi, 14*(33), 117–130. https://doi.org/10.12981/mahder.867867
14. Qasımova, S., & Rüstəmzadə, İ. (2020). *Tovuz folklor örnəkləri* (II kitab). Elm və təhsil.
15. Rasic, M. (2026). Tailoring identity: Folk costume in contemporary society. *Etnoantropološki Problemi, 20*(4), 1073–1097. https://doi.org/10.21301/eap.v20i4.5
16. Rocamora, A., & Smelik, A. (2016). *Thinking through fashion: A guide to key theorists*. I.B. Tauris.
17. Rüstəmzadə, İ. (2024). *Qərbi Azərbaycan folkloru* (III kitab). Elm.
18. Rzayeva, Ç. V. (2020). Ərəb və fars mənşəli geyim adlarının Naxçıvan folklor mətnlərində işlənmə yeri. *Filologiya məsələləri, 5*, 110–117.
19. Rzayeva, Ç. V. (2024). *Naxçıvan şəhər folklorundan örnəklər*. Əcəmi.
20. Süleymanova, L. (2023). *Şərur folklor örnəkləri* (II kitab). Elm və təhsil.
21. Tajuddin, F. N. (2018). Cultural and social identity in clothing matters: Different cultures, different meanings. *European Journal of Behavioral Sciences, 1*(4), 21–25. https://doi.org/10.33422/EJBS.2018.07.63

Daxil oldu: 13.11.2025
Qəbul edildi: 26.01.2026